Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

ƏNVƏR ƏLİBƏYLİ

# *NƏĞMƏLƏR*

- 19306 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI-2016

84(5Aze)+85.31(5Az)
Ə 52

**Redaktor: Şəlalə Əlibəyli**
**Korektor: Elçin Babayev**
**ƏNVƏR ƏLİBƏYLİ – 100. NƏĞMƏLƏR**

**«NAT» firması, Bakı, 2016, 72 səh.**

*Təqdim olunan kitab şair Ənvər Əlibəylinin 100 illik yubileyi münasibəti ilə dərc edilmişdir. Kitabda Ənvər Əlibəylinin sözlərinə yazılmış nəğmələr toplanmışdır. Görkəmli bəstəkarların bu sözlərə bəslədiyi mahnılar uzun illər Rəşid Behbudov, Müslüm Maqomayev, Şövkət Ələkbərova, Rübabə Muradova, Gülağa Məmmədov, Mirzə Babayev, Flora Kərimova kimi müğənnilərin repertuarından əskik olmayıb. Bu mahnılar indi də sevilə-sevilə ifa olunmaqdadır.*

**ISBN 978-9952-8307-5-0**

**©Ə.ƏLİBƏYLİ, 2016**



## ƏNVƏR ƏLİBƏYLİ – 100

Ənvər Əlibəyli 1916-cı il aprel ayının 1-də Bakıda dünyaya göz açmışdır. Əvvəl Tibb Texnikumunda, sonra ADU-nun fəhlə fakültəsində, APİ-nin filologiya fakültəsində təhsil almışdır. 1938-ci ildən İkinci Dünya müharibəsi başlayana qədər Azərbaycan radiosunda çalışmışdır. Tiflisdə Topçular Hərbi məktəbini bitirib, leytenant rütbəsi ilə könüllü olaraq ön cəbhəyə getmişdir. İkinci Dünya Müharibəsinin ilk günlərindən ordu sıralarında olan Ənvər Əlibəyli artilleriya batareyasının komandiri olmuş,məşhur 416-cı qanroqatıcı diviziyasında ağır döyüş

yolu keçmişdir. 1944-cü ildə ağır yaralandıqdan sonra yazıçı-jurnalist kimi döyüşlərdə iştirak etmişdir. 40-cı illərin axırında "İnqilab və mədəniyyət", "Təbliğatçı" jurnallarının məsul katibi olan Ənvər Əlibəyli, 1948-1952-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının orqanı «Ədəbiyyat qəzetinin» redaktoru vəzifəsində çalışmışdır. 1952-ci ildən ömrünün axırınadək Respublika Radio və Televiziya Verilişləri Komitəsində işləmiş, 1964- 1968-ci illərdə həmin komitənin sədri olmuşdur. SSRİ AliSovetinin deputatı (7-ci çağırış) olmuşdur.

1939-cu ildən Sovet Yazıçılar İttifaqının üzvü olan Ənvər Əlibəylinin şeir və poemaları müxtəlif xalqların dilinə tərcümə edilmişdir. Onun "Qaranquş" adlı ilk şeirlər kitabı 1947-ci ildə işıq üzü görür. Sonrakı illərdə xeyli kitabı nəşr olunur: "Sənin adınla", "İlk məhəbbət", "Dostluq körpüsü", "Mingəçevir şeirləri", "Dalğalar arasında", "Elə xoşbəxtəm ki!", "Nəğmələr", "Bir kitab şeir", "Ürəyimdəsən" və s. "Əbədiyyət" (1964) novella-pyesinin müəllifi olan Ənvər Əlibəylinin "Seçilmiş əsərləri" 1975-ci ildə işıq üzü görmüşdür. Rus dilində 1958-ci ildə nəşr olunmuş «Заостровом Артёма» kitabına müəllif seçmə şeirlərini toplamışdır. Xaqani, Puşkin və Nekrasovdan tərcümələri vardır. Ənvər Əlibəyli həm də bir neçə poemanın müəllifidir. "Samur dastanı" poeması Samur çayının suyunu çəkib susuz çöllərimizə çatdıran inşaatçıların fədakarlığından, "Bacı", "Gözlər, ürəklər, əməllər" poemaları 1941-1945-ci illərin hadisələrindən, "Dalğalar arasında" poeması isə dəniz neftçilərinin sücaətindən, "Polad", "Dostluq körpüsü" yaxın keçmişin hadisələrindən bəhs edir. Adı çəkilən poemalarda lirizm ilə epos bir-birinə nüfuz edərək, sanki bir vəhdət təşkil edir.Uşaq ədəbiyyatında da Ənvər Əlibəylinin öz



yeri var. "Qurd nağılı", "İlan və qurbağa", "Balaca bağbanlar" adlı şeir və təmsilləri indi də məktəb dərsliklərində yer almaqdadır.

Ənvər Əlibəylinin bir sıra şeirlərinə musiqi bəstələnib. Onun «Azərbaycan» şeirinə bəstəkar Rauf Hacıyevin bəstələdiyi mahnı isə dillər əzbəridir. Mahnı görkəmli müğənni, Xalq artisti Rəşid Behbudovun ifasında bir çox ölkələrdə səslənib. Ənvər Əlibəyli 1968-ci ildə may ayının 7-də Bakıda həyatının, yaradıcılığının yüksələn bir vaxtında dünyadan köçmüşdür. Məzarı Fəxri Xiyabandadır.

**Atamın gözü ilə...**

Bir gözəl bahar mövsümü bizim dünyaya atamın gözü ilə baxmaq istədim... Onun gördüklərini seyr etmək, duyğularını hiss etmək, sevincinə və kədərinə şərik olmaq, sevdiklərini yada salmaq keçdi ürəyimdən. Onun gözləri ilə keçib-getdiyi həyat yoluna nəzər saldım. Onun özü haqqında nə düşündüyünü xatırladım. Özü haqqında nə düşünürdü? 45 yaşı tamam olanda yazdığı şeir, güzgü kimi onun xislətini əks etdirərək bu sualı belə cavablandırır:

Qırx beş yaşım
Tamam oldu bu səhər.
Ağlım kəsəndən bəri
Keçib gəldiyim
Yola saldım nəzər.
Bütün insanlar kimi
Yaxşı günüm də olub,

Yaman günüm də olub.
Çoxlu ürək sevincim,
Çoxlu ünüm də olub.
Birini şad görəndə
Sevinmişəm, gülmüşəm.
Dərdlilərin dərdinə
Şərik olub bölmüşəm.
Demirəm pak olmuşam
Günahsız bir quzuyam.
Amma bir şeyə, dostlar,
Mən ürəkdən razıyam.
Kaş bütün insanların
Dünyada günahları
Mənimki qədər olsun.
Eybi yoxdur, bir az da
Mənkindən betər olsun.

Ənvər Əlibəylini yada salmaq - mehriban bir insanı, şeiri, nəğməni, odlu-alovlu müharibə illərini, radio dalğalarını, mavi ekranı xatırlamaq deməkdir. Bir daha onun şeir kitablarını vərəqlədim, bu dünyamıza onun gözləri ilə baxdım, nələr gördüm, nələr duydum? Bahar sevgisi gördüm onun şeirlərində:

Səhər oldu, pəncərəmdən
Qucaq-qucaq
İşiq doldu otağıma.
Mən boylandım, çölə baxdım,
Ətirli bir külək dəydi
Yanağıma.



Göy yarpaqlı cavan söyüd,
Sanki mənə verdi salam.
Pıçıldadı aram-aram
Qanad çalan qaranquşlar:
Gəldi bahar,
Gəldi bahar!

O, baharın gəlişinə çox sevinərdi. Axı "Sənin vurğununam, bahar, ay bahar!", "Mən baharı sevirəm"- deyən şairi baharla çox həzin məqamlar bağlayır. Bu sirli dünyamıza Ənvər Əlibəyli məhz baharda, aprelin 1-də göz açmışdı. Bahar ətrini duymağı, bahar lövhələrini, gəlinə bənzər ağ çiçəkli ağacları seyr etməyi xoşlardı. Ağ çiçəklərdən duvaq tutmuş fəsillər gəlini - bahara atamın gözü ilə baxdım. Gördüklərimi, duyduqlarımı onun misraları ilə belə təsəvvür etdim: " Ətirli güllərdən qızlar, gəlinlər dərib sinəsinə taxıb", "Geri dönən qaranquşların nəğməsi eşidilir", "Yaşıl donlu ilk baharın nəfəsi duyulur", "Rəng verib, rəng alır yamac, çöl, çəmən". Gördüm ki, bahar onun üçün gözəl bir şeirdir:

Mən bahara şeir yazmaq
İstədim bax.
Lakin ilham dedi mənə:
Bir nəzər sal göy çəmənə,
Başı qarlı dağlara bax,
Sən göz yetir yamaclara,
Çiçəklənmiş ağaclara.
Nə qəşəngdir bir gör onlar,
Hər yanda bir gözəllik var.

Bahar özü,
Sözün düzü,
Ən qüvvətli bir şeirdir.

Baharda ən çox sevdiyi ay May idi. Mayın gəlişini, 9 may - Qələbə gününü xüsusi bir çılğınlıqla gözlərdi. Böyük Vətən müharibəsinin odlarından keçmiş cəbhəçi şair həmin günü hər il dostları ilə qeyd edirdi.

Yenidən atamın müharibə şeirlərini oxudum, onun gözləri ilə döyüşlər gedən Terek, Azov, Dnepr, Tissa sahillərinə baxdım. Atamın ilk müharibə şeirlərihəmin sahillərdə səslənib, sanki həmin şeirləri dinlədim. Onun cəbhə şeirləri top atəşi kimi gurultulu deyil, son dərəcə həzindir, lirikdir.1943-cü ildə yazdığı lirik bir çağırışla bahar müjdəçisi qaranquşa deyir:

Gəl, qaranquş, gəl uçaq, mənim də qanadım var,
Mən azadlıq aparım, sənsə gül üzlü bahar
Növraqları pozulmuş bağçalara bağlara...

Əhməd Cəmil haqlı olaraq atamın cəbhə şeirləri haqqında yazırdı: "Şair Ənvər Əlibəylinin müharibəyə, cəbhəyə aid şeirlərində gurultulu çağırışlara, nidalara rast gəlmirik. O, ifadə etmək istədiyi fikirləri və hissləri, döyüşçü üçün əziz olan bir məktub, bir şəkil, yaxud müəyyən bir hadisə ilə bağlayır, kiçik və sadə süjetlər qurur".

Dəfələrlə həyat və ölüm arasında qalan cəbhəçi şair "Şəkil haqqında mahnı" adlı lirik cəbhə şeirində deyir:

Torpaq qazma, uzun gecə... od var ocaqda,
Bayır şaxta, ölüm yaxın, sənsə uzaqda.



Hisli-hisli yanır çıraq dar mənzilimdə,-
Oturmuşam təkcə özüm şəklin əlimdə.

Müharibə mövzusunda yazdığı ən lirik şeirlərindən birini, çox sevdiyim "Döyüşçünün ölümü" adlı şeirini xatırlamaq istərdim:

Sən öləndə bahardı,
Çöllərdə, çəmənlərdə
Min cürə çiçək vardı.
Səni dəfn etdik səhər,
Matəm bayrağı kimi
Əyilmişdi lalələr.

Atamın gözü ilə onun döyüş meydanında yaralanıb yerə səriləndə, səmada gördüyü çəhrayı buludlara baxdım:

O gün ki, cəbhədə , sinəmdən aldım yara,
Nəzər saldım göydəki çəhrayı buludlara.
Düşündüm ki, ömrümə bifəfa çıxdı baxtım.
Baxışlarımda hər şey çənə, dumana döndü,
Əl qoydum yaram üstə, ürəyim qana döndü.

Yazıçı Cəlal Məmmədovdaxili bir inam hissi ilə yazırdı ki, Ənvərin həyat yolu gənc şairlərimiz üçün də, şərəfli ordumuzun əsgərləri və zabitləri üçün də parlaq nümunədir.

Bəlkə elə həmin müharibə illəridir ki, onun təbiətinə yumşaqlıq, həlimliklə yanaşı, alicənab bir mərdlik, sınmaz bir igidlik, çılğın bir coşqunluq gətirmişdi!? Müharibə illəri, həyatla

ölüm arasında olan məqamlar gənc şairə yalnız qəhrəmanlıq şairlik deyil, bir sıra yüksək xüsusiyyətlər aşılamışdı: dostluğa sədaqət, mətin iradə, daxili intizam, yüksək məsuliyyət hissi, həqiqət və ədalət naminə obyektivlik, təvazökarlıq, sadəlik. Məhz bu nəcib keyfiyyətlərinə görə çoxları onu özünə dost, müəllim, qardaş sayırdı.

Bəxtiyar Vahabzadənin yazdıqları yuxarıda deyilənləri təsdiqləyir: "Onu 1938-ci ildən tanıyırdım. Ənvər əsil insan etalonu idi. Onun apardığı ədəbiyyat dərnəyinə gedənlərdən biri də mən olmuşam. Poeziyanın sirlərini ondan eşidir, ondan öyrənirdik. Onu nə rahat kreslolar, işıqlı kabinetlər, nə də vəzifələr dəyişə bildi. "Ədəbiyyat və incəsənət" qəzetinin redaktoru olanda da, Televiziya və Radio verilişləri Komitəsinə rəhbərlik edəndə də Ənvər böyüklə böyük, kiçiklə kiçik idi. Məhz kövrək, incə qəlbli şəxsiyyət olduğuna görə Ənvərdə qəlbləri duymaq, sözü nəğməyə çevirmək məharəti vardı".

Uzun illər atamla birlikdə işləmiş Aqşin Babayevin xatirələri də bu baxımdan maraqlıdır: "Ənvər Əlibəyli xatirimdə kövrək duyğulu, nəcib bir insan kimi yaşayır. Onun şeirləri həyatının güzgüsüdür. Yaxşı insanları görəndə sevinən, bədəsil insanlara görə dünyadan küsən Ənvər Əlibəyli çox müdrik, gəncliyindən, saç saqqalı ağarmadan ağsaqqal olmuşdu. Az yaşadı. Amma bu az ömründə çox iş gördü. Müharibənin odlu-alovlu səngərlərindən keçdi. Vətən oğlu kimi döyüşdü, gözəl əsərlər yaratdı, məsul vəzifələrdə çalışdı, insanlara etdiyi yaxşılıqlara görə özündən sonra işıqlı bir iz qoydu".

Ənvər Əlibəyli Aqşin müəllimin təbirincə desək, doğrudan da vətən oğlu kimi döyüşdü. Qızıl bayraqlı Taqanroq atıcı diviziyasının topçu-komandiri kimi şərəfli bir döyüş yolu



keçdi, iki dəfə yaralanıb, döyüş ordeni və medallarla təltif olundu. "Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində" monoqrafiyasında Ə. Bağırzadə yazır ki, 1944 – cü ilin yanvarında Azərbaycan Yazıçılar İttifaqına cəbhədən belə bir məktub gəlmişdi: "Böyük Vətən müharibəsi cəbhələrində rəşadət və fədakarlıq göstərən həqiqi Azərbaycan balası, sizin yetişdirməniz, gənc cəbhəçi şair Ənvər Əlibəyli haqqında sizə yazmağı və belə bir vətənpərvər şair tərbiyə etdiyinizə görə sizə təşəkkür etməyi borc bilirik. Baş leytenant Ənvər Əlibəyli bizim hissənin ən qabaqcıl, mübariz zabitlərindən biridir. Əlibəyli yoldaş azğın alman işğalçılarına qarşı döyüşlərdə igidlik və rəşadət göstərdiyinə görə "Qırmızı ulduz", "İkinci dərəcəli Vətən müharibəsi" ordenləri ilə təltif edilmişdir. Komandanlıq Ənvər Əlibəylinin simasında özünün ən bacarıqlı və döyüşkən zabitini tanıyır. Sizin qəhrəman şairinizlə fəxr etməyə haqqınız var".

Həddindən artıq kövrək xislətli, zərif qəlbli, insanpərvər bir şəxs idi atam. Belə bir insan əlinə silah alıb, necə vuruşub? Bu sualı Bəxtiyar Vahabzadə "Dörd yüz on altı" poemasında atamın keçdiyi döyüş yolunu təsvir edərək, belə cavablandırıb:

Yumşaq təbiətli bu həlim insan,-
Deyərdin quşa da daş ata bilməz.
Ancaq... top dalına keçdiyi zaman
O yalnız əsgərdir,-
Ölər, yenilməz!
Döyüşdə əsgərdi-
Adicə əsgər;
Döyüş qurtardımı?
Şairdir Ənvər.

Vətən uğrunda vuruşan Ənvərə - qəhrəman Vətən oğlu dedilər. O bu adı canı, qanı bahasına, qələminin səmimiyyəti, qəlbinin hərarəti ilə, əmələnin saflığı ilə qazanmışdı.Vətən eşqi ilə döyünən ürəyinin səsi bu gün də yaxınları uzaqları dolaşan nəğmələrində eşidilməkdədir:

Özün kimi vüqarlıdır uca dağların,
Hüsnünə bir yaraşıqdır yaşıl bağların,
Bizimlə bir başlamışdır gözəl çağların,
"Yurdum, yuvam məskənimsən", Azərbaycanım,
Odlar yurdu, Vətənimsən, Azərbaycanım!

Zənnimcə, qocalmayan, zaman bilməyən bu nəğmədə Səməd Vurğundan olan iqtibas "Yurdum, yuvam məskənimsən" sözləri layiqli, ürək çırpıntılı bir mətndədir . Atamın gözü ilə, onun ürək çırpıntısı ilə, baxdım Vətən torpağına, poetik bir həzinlik süzüldü bu misralardan:

Sənə şirin arzum deyim, diləyim deyim,
Havam deyim, suyum deyim, çörəyim deyim,
İki yerə bölünmüş ürəyim deyim-
"Yurdum, yuvam məskənimsən", Azərbaycanım,
Odlar yurdu, vətənimsən, Azərbaycanım!

Onun misralarından Vətənimin gözəlliyini, ətrini bir daha duydum:

Tamaşadır başdan-başa bu Vətən,
Atlas meşə, yaşıl yamac, göy çəmən,



Düzlərdəki lalə, nərgiz, yasəmən,
Bağlardakı qızılgüllər gözəldir.

Nəğməyə dönmüş bu şeirdən də bahar ətri gəlir. Bahar, sanki onun təbiətinə hopmuşdu, elə anadan olduğu, zarafatlar və məzəli aldatmalar günü sayılan -1 aprel də onun təbiətinə, sanki incə bir yumor hissi bəxş etmişdi. Onun zərif zarafatları indi də dost və tanışlarının yadındadır. Həmin tarixdə dostlarını 50 illik yubileyinə dəvət edəndə onlar bunu "Bir aprel" zarafatı sanmışdı və ziyafəti yalnız sabahı gün keçirmək mümkün olmuşdu.

Təbəssüm, gülüş ona yad deyildi, hətta...
"Mən ölümün özünə belə
Gülmək istəyirəm.
Ölümsüz bir ölümlə
Ölmək istəyirəm" – deyirdi.

Belədəoldu.MəmmədAslanıntəbirincədesək:"Bumisraları yazan Ənvər Əlibəyli ölümsüzlük iksirini arayıb tapmışdır. Axtaran tapar!-deyiblər." Həmin iksirə bənzər bir qüdrət sirri həqiqətən ona yol yoldaşlığı etmişdi: gözlərinin nurunu, qəlbinin hərarətini sonralar minlərlə soydaşının dilindən əskik olmayacaq nəğmələrinə vermişdi. Buna görədənəğmələşmiş şeirləri onun lirikasında xüsusi yer tutur. Bunların bir çoxu artıqxalq yaddaşında folklorlaşıb. Şair o zaman xoşbəxt olur ki, elin yaddaşına qoşulur, özü əlçatmazlıqlara qanadlanır, nəsillər də "bunlar xalqındır" – deyib onu yaşadır.Ənvər müəllimin ömrü beləcə xalq ruhunda əbədiyyət yoluna çıxmış bir ömürdür.

Ağacda alma yanağı qırmızı,
Dər, səbətə yığ onu, bağban qızı!
Yaşıl bağın gözəlidir ağ alma,
Almanı dərdin daha bağda qalma!

Yəqin ki, hər kəs bunu bir ağız ədəbiyyatı bilir. Bunlar xalq ruhuna o qədər doğmadır ki!..."

İbrahim Topçubaşovun musiqisinə yazılmış "Söz olmasaydı " mahnısıda bu qəbildəndir:

Dağlarda duman gözəldir,
Qaşları kaman gözəldir.
Hüsnünə heç bir söz olmaz,
Gözlərin yaman gözəldir.

Atamın gözü ilə mavi ekrana, el şənliklərinə baxdım. Elə bir gün olmadı ki, onun sözlərinə yazılmış mahnılar efirdə səslənməsin, elə bir el şənliyi olmadı ki, o mahnılar oxunmasın: "Azərbaycan", "Sevgilim", "Zibeydə", "Gəlmədin", "Hamıdan gözəl mənəm", "Bakı, əziz şəhər", "Ağacda leylək", "Elə xoşbəxtəm ki...", "Niyə sevdim mən səni", "Özünə qurbanam", "Bulaq üstə gedən gözəl" və s.

Əbəs deyil ki, onu canlı nəğmə adlandırırdılar. Şahmar Ələkbərzadənin dediyi kimi: "Mahnı yaradıcılığımızı Ənvər Əlibəylisiz təsəvvürə gətirmək mümkün deyil". Atamın nəğmə yaradıcılığı haqqında Cəlal Məmmədovun söylədikləri də maraqlıdır:" Ənvər Əlibəyli insan simasında canlı nəğmə idi. Bu nəğmədə ən zərif, ən incə, lirik notlar da, el həyatı və mübarizəsi ilə bağlı şən və gümrah tərənələr də, cəngi sədaları, döyüş



çağirişları da var idi. Bahar selitək çağlayan, göyqurşağıtək bərq vuran hədsiz sevinc, həzin şikəstənin iniltisi, bayatı qüssəsitəkməhzun kədər də var idi".

Yuxarıda onun sözlərinə yazılmış çox oxunan mahnıların adını çəkdik. Amma onun "Polad" radio-operasında "həzin şikəstə iniltili, bayatı qüssəli,məhzun kədərli" az ifa olunan bir mahnı var. Musiqisi Ramiz Mustafayevindir. Həmin sözləri yada salmaq istərdim:

Mən səni çox sevirəm, həm də möhkəm sevirəm,
Amma istəyirəm ki, səndən mən üz çevirəm.
Gəl qınama məni sən,
Sən mənə tay deyilsən,
Mən soyumuş bir külək,
Sən dalğalı bir dəniz,
Necə tay olaq ki, biz?
Mən coşmaq istəsəm də, coşabilmirəm artıq,
Sən çırpınmaq sevirsən, mənsə dinclik, rahatlıq.
Çox sevirəm mən səni, həm də möhkəm sevirəm,
Amma istəyirəm ki, səndən mən üz çevirəm.
Amma bacarmıram mən,
Gəl qınama məni sən.

Ənvər Əlibəylinin mahnı yaradıcılığında dəniz mövzusu xüsusi yer tutur. Onun gözü ilə mavi Xəzərə baxdım. Misralara çevrilən baxışlar mənə pıçıldadı:

Xəzərim, öz Xəzərimsən,
Mənim göygöz Xəzərimsən.

Hər dalğan bir nəğmə deyir,
Nə gözəlsən, Xəzərim.

O, Xəzəri, "onun ağ qanadlı, göy gözlü, pıçıldaşan ləpələrini, xırçın-xırçın sularını, yalçın qayalı sahillərini" sonsuz şair məhəbbəti ilə sevirdi. Dənizə şeir yazan şairlər arasında Ənvər Əlibəylinin özünəməxsus yeri var. "Ürəyimdəsən" adlı kitabının bir fəsli "Ləpələr adlanır".

Qanadlı quşmusunuz,
Hayandan uçmusunuz?
Ləpələr, ay ləpələr.
Nə qədər kövrəksiniz,
Döyünən ürəksiniz,
Ləpələr, ay ləpələr.

Onun dəniz şeirlərini oxuduqca dənizlə özü arasında bir bənzərlik duydum.

Vurulmaqçın dənizə
Kifayətdir bir baxış,
Bütün gözəlliyini
Xəsislik eləmədən
Bizim üçün xərcləyən
Dənizə alqış!

Ənvər Əlibəyli də Tanrının, zamanın, bəy nəslinin ona bəxş etdiyi nuru, səmimiyyəti, vurğunluğu, sadəliyi, istedadı dəniz kimi, xəsislik etmədən xalqı üçün xərcləməyi bacardı.



- 19306 -

"Dənizə alqış!" – deyən Ənvər Əlibəyli dənizdə çalışan qəhrəman neftçilərimizə də poetik bir tərzdə alqış deyirdi. Onun "Dalğalar arasında" poeması dəniz neftçilərinin sücaətindən bəhs edir. "Sual" adlı şeiri neftçilərin dilində əzbər idi:

Yerdən çıxan neftə çox vaxt
Qara qızıl –deyirik biz.
Eşitdikcə bu kəlməni
Fərəhlənir ürəyimiz.
Əgər qara neft qızılsa,
Onda, dostlar, deyin görək:
Onu yerin qatlarından
Çıxarana nə ad verək?

Daha nələri, nələri gördüm atamın gözü ilə? Onun "Bir kitab şeir" adlı şeirlər toplusunu vərəqlədim... şeirləri oxuduqca İlyas Əfəndiyevin bu sözləri yadıma düşdü: "Həqiqi insan qəflətən öləndə elə bil ki, meşədə qüdrətli bir palıd yıxılır. Ənvər Əlibəyli həqiqi və bütöv insan idi. Onun təbiətində də, poeziyasında da mərdanəlik var idi. Sənətdə əsl poeziyanı saf və mərd ürəklər yaradır. Ənvərin şeirləri mənə həmişə çınqıllıqda səpələnmiş dağ çiçəklərini xatırladır". Təhməz Məmmədov İlyas Əfəndiyevin "çınqıllıqda səpələnmiş dağ çiçəkləri" təbirinə incə bir şərh vermişdir: "Məlumdur ki, çınqıllıqda, qayalarda, daşlar üstündə çiçəklər çox az bitir, amma çox nadir və ətirli, şəffaf, təmiz, təravətli olur bu çiçəklər. Bax, İlyas Əfəndiyev Ənvər Əlibəyli poeziyasını bu mənada qiymətləndirmişdir".

Həmin çiçəkləri xatırladan misraları yada salaq. Dedilər ətirlidir bu çiçəklər, yarın "saçlarının qoxusu" kimi:

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Yəqin bu gün səhər-səhər
Bu bağçadan keçmisən.
Soruşursan
Nədən bildim bunu mən?
Çiçəklərin nəfəsində
Saçlarının qoxusu,
Nərgizlərin xumarında,
Gözlərinin yuxusu.

Dedilər şəffafdır bu çiçəklər, "gizlətmək mümkün olmayan həqiqət" kimi:

Həqiqəti gizlətmək
Olmayıbdır müyəssər.
Həqiqət şəffaf sulu
Qaynar bulağa bənzər.
Bağlasalar gözünü
Əgər qaynaq bulağın,
Başqa bir yerdən yarar
O bağrını torpağın.

Dedilər təmizdir bu çiçəklər, ilk məhəbbətimiz olan " ana məhəbbəti" kimi:

Ləkəsizdir, təmizdir,
Dalğalı bir dənizdir,
Canımdan da əzizdir
Mənim ilk məhəbbətim.



...
Ömrün ülviyyətidir,
Könül şeriyyətidir,
Ana məhəbbətidir,
Mənim ilk məhəbbətim.

Dedilər təravətlidir bu çiçəklər, "uca dağ başında olan qar" kimi:

Demə saçlarıma dən düşüb artıq,
Gənclik gedib əldən, qocalmışam mən.
Bu gözəl dövranda qocalmaq olmaz,
Ömrüm uzandıqca ucalmışam mən.
Düzdür, ağ saçlar var başımda, nə qəm,
Ağ çiçəklər açar gələndə bahar.
Birdə ki, əzizim, özün bilirsən
Uca dağ başında daim qar olar.

Bəli, "Ağ çiçəklər açar gələndə bahar". Yenə də qayıdım bahara. Axı demişdim ki, atamı baharla çox həzim məqamlar bağlayır. Ənvər Əlibəylini baharla bağlayan bir tarix də var... Mayın 7-si. Uzun illər bu tarix Radio və Televiziya günü kimi qeyd olunub. Bütün ömrünü radio və televiziya işinə həsr edən, həmin idarədə rəhbər vəzifələrdə çalışan Ənvər Əlibəyli Radio və Televiziya günü, mayın 7-də dünyasını dəyişdi. Baharda dünyaya gəldi, baharda da dünyamızı tərk etdi. Sonuncu dəfə gördü ağ bahar çiçəklərini. "Bağ, xəzan və mən" adlı şeiri yada düşür:

Vaxt keçəcək,
Bahar gələcək.
Ağacların yenə açacaq çiçək,
Geri dönəcək gedən quşların,
Nəğməsini dinləyəcəksən
Qaranquşların.
Darıxmayın, darıxmayın,
Ey mənim saralıb,
Yenə də yaşıllaşan ağaclarım.
Qoy, mən darıxım,
Daha qaralmayacaq
Hər gün bir az ağaran
Qara saçlarım!

Onun gözü ilə baxdım qohum, dost, həmkar və tanışlarla dolu olan, cənazəsi qoyulan vida salonuna. Hamı ayaq üstündə idi. Yalnız bir adam oturmuşdu. O, Habil Əliyev idi. Atamın vəsiyyəti ilə onun cənazəsi üstündə Yetim segah çalırdı. Segahı dinlədikcə atamın bu misraları qulağımda səslənirdi:

"Süleymana qalmayan dünya
Sənə də qalmayacaq"-
Deyilən bir misal var,
Dolaşır dodaq-dodaq,
Bu düzdür...
Biz gedəcəyik, ancaq
Dünya yenə də insanlara qalacaq.

İnsanlara qalan dünyada Ənvər Əlibəyli şərəfli bir ömür



yolu keçdi. Ulu öndərimiz Heydər Əliyevin televiziya işçiləri ilə görüşdə atam haqqında dediklərini xatırlamaq istərdim: "Mən Ənvər Əlibəylini çox böyük hörmətlə xatırlayıram. O, həm yaxşı jurnalist, həm yaxşı şair idi. Həm də televiziyaya yaxşı rəhbərlik edirdi". Onunla birgə işləyən hər bir kəs yəqin ki, bu fikrə qoşular. Əmiraslan Əmiraslanovun dediklərindən:" İşlədiyim qırx il ərzində Ənvər müəllim kimi alicənab, yüksək rəhbərlik ketfiyyətləri iləinsani keyfiyyətləri birləşdirənvə onu gözəl ifadə eləyən ikinci bir şəxsiyyətə rast gəlməmişəm. Bu parlaq şəxsiyyət insanlıq nümunəsi idi".

Əfsus ki, Ənvər Əlibəylinin keçdiyi şərəfli ömür yolu qocalığa gedib çatmadı:

İnsan qocalanda, səs də qocalır,
Fikir də qocalır, hiss də qocalır.
Çox hayıf, çox hayıf, illər ötdükcə,
Yaxşı da qocalır, pis də qocalır.

Hayıf, ona qocalıq qismət olmadı, hamınınxatirində cavan qaldı, nəğmələri kimi qocalmaz oldu. Öz sözünə naxələf çıxdı. Axı o yazırdı:

İnsanlara
Lazım olan insan,
Tək qalmaz heç bir zaman,
İstəmirəm ömrümdə.
Bircə gün də tək qalam.
Yaşamaq istəyirəm,
O qədər-

Nə qədər ki,
İnsanlara lazımam.

Amma...amma bizə, dostlara, onu sevənlərə lazım ola –ola dünyasını dəyişdi. Hələ də onun ölümünə inanmaq istəmirəm. Əmir Hüseynin dediyi kimi:

Dənizin tufanını itirmişəm,
Sahilin qəhqəhəsini,
Yerin cazibəsini,
İtirmişəm.
Ürəyimin səsini.
Gözlərim baxışını
Yadırğayıb.
Ayaqlarım yerişini.
İnsan ölümünə
İnanıram.
O ki, nəğmə idi!
Nəğmə ölümünə
Necə inanım,
Necə ??!

Elədir, inanmaq olmur. Çünki bu dünyada nə nəğmələr ölür, nə də ürəyi nəğmə ilə dolu şairlər.

Bir də onun gözü ilə dünyamıza baxdım və bu yazımı qəmli notlarla bitirmək istəmədim. Ənvər Əlibəyli ilə bu bahar görüşünü "Elə xoşbəxtəm ki..." şeirindəki, dost görüşündən doğan nikbinlik ilə tamamlamaq istəyirəm:



Bu gün elə xoşbəxtəm ki...
Sanki qanadlı quşam,
Elə bil ki, anadan indicə doğulmuşam,
Bu gün elə xoşbəxtəm ki...
Sanki uçacağam mən.

Elə bil ki, ilk dəfə
Ov vurmuş uşağam mən.
Bu gün mən bilmirəm ki,
Nədir qüssə, nədir qəm –
Axı, əziz dost, bu gün,
Səninlə görüşmüşəm...

***Şəfəq Əlibəyli***

*Susmayan nəğmələr.*
*Sözləri Ənvər Əlibəylinindir....*

## AZƏRBAYCAN

*Musiqisi Rauf Hacıyevindir.*

Özün kimi vüqarlıdır uca dağların,
Hüsnünə bir yaraşıqdır yaşıl bağların,
Bizimlə bir başlamışdır gözəl çağların,
«Yurdum, yuvam, məskənimsən» Azərbaycanım!
Odlar yurdu vətənimsən, Azərbaycanım!

***

El bilir ki, tükənməyən sərvətin vardır,
Sinən üstü ağ pambıqlı gen tarlalardır,
Buruqların dənizdə də qatar-qatardır,
«Yurdum, yuvam, məskənimsən» Azərbaycanım!
Odlar yurdu vətənimsən, Azərbaycanım!

***

Sənə şirin arzum deyim, diləyim deyim,
Havam deyim, suyum deyim, çörəyim deyim,
İki yerə parçalanmış ürəyim deyim,
«Yurdum, yuvam, məskənimsən» Azərbaycanım!
Odlar yurdu vətənimsən, Azərbaycanım!



## SEVGİLİM

*Musiqisi Rauf Hacıyevindir.*

Sən mənə bir qəşəng gül verdin bu gün,
Qalmadı nə qüssəm, nə də ki, dərdim.
O gülün yerinə mən sənə ay qız,
Məhəbbətlə dolu qəlbimi verdim.

*Nəqərat:*
Sevgilim, sevgilim,
Könlümün səsinə cavab ver mənim.
Gəl çıxaq sahilə bu axşam yenə,
Saçını darasın, qoy sərin külək.
Mən gülü neylərəm, könül ver mənə,
Sevinsin sinəmdə çırpınan ürək.

*Nəqərat:*
Sevgilim, sevgilim,
Könlümün səsinə cavab ver mənim.

## TƏKCƏ SƏNİ SEVMİŞƏM

Musiqisi Rauf Hacıyevindir.
Çiçək açıb düzlərin, ay qız,
Nə şirindir sözlərin.
Heyran edər görəni, ay qız,
Sənin qara gözlərin.

*Nəqərat:*
Çiçək kimi gözəl sənsən,
Baharın ətri gəlir tellərindən.
Bulaq suyu içmişəm, ay qız,
Qapınızdan keçmişəm.
Gözəl qızlar içində, ay qız,
Təkcə səni sevmişəm.

*Nəqərat:*
Çiçək kimi gözəl sənsən,
Baharın ətri gəlir tellərindən.



## GƏLMƏDİN

***Musiqisi Səid Rüstəmovundur***

Axar sular dayandı,
Qəlbim həsrətlə yandı.
Rəyin niyə dolandı, yar!
İlk görüşə gəlmədin.

*Nəqərat:*
*Gəlmədin, gəlmədin,*
*Gəlmədin, yar, gəlmədin.*

Könlümdə xoş umuddun,
Atəşdim, sən soyutdun.
Öz vədinin unutdun, yar!
İlk görüşə gəlmədin.

*Nəqərat:*
*Gəlmədin, gəlmədin,*
*Gəlmədin, yar, gəlmədin.*

Gün batdı qaş qaraldı,
Qəlbimi qüssə aldı.
Gözüm yollarda qaldı, yar!
İlk görüşə gəlmədin.
*Nəqərat:*
*Gəlmədin, gəlmədin,*
*Gəlmədin, yar, gəlmədin.*

## ZİBEYDƏ

*Musiqisi Tofiq Quliyevindir.*
*("Bəxtiyar" kinofilmindən)*

Alagöz, Zibeydə, sən qəşəngsən. qəşəng,
Həsrətin qəlbimi yandırır, ey mələk!
Sənin mən hicrinə dözmərəm,
Səndən mən əlimi üzmərəm.

*Nəqərat:*
Alagöz, şirinsöz, Zibeydə, mən sənə yalvarıram,
Dərdindən heyva tək saraldım, gəl mənə yalvarıram.
Yaz gəlib. Hər yanda gül açmışdır çəmən.
Bənövşətək boynun əyilmişdir qəmdən.
Sənin mən hicrinə dözmərəm.
Səndən mən əlimi üzmərəm.

*Nəqərat:*
Alagöz, şirinsöz, Zibeydə, mən sənə yalvarıram,
Dərdindən heyva tək saraldım, gəl mənə yalvarıram.



## AĞACDA LEYLƏK

*("Bəxtiyar" kinofilmindən)*
*Musiqisi Tofiq Quliyevindir.*

«Ağacda leylək hava bağlar gedər,
Qız sevən oğlan hava bağlar gedər».

Ağacda alma, yanağıqırmızı,
Dərsəbətəyığonu, bağbanqızı.

Ağacda alma,dadıbaldanşəkər,
Qızoğlaniləonuxəlvətdərər.

Ağacda alma, yetişibdərtezol!
Dostlarüçünsənonugöndərtezol!

Yaşıl bağın gözəlidir ağ alma,
Almanı dərdin, daha bağda qalma.

## DOSTLUQ NƏĞMƏSİ

***("Bəxtiyar" kinofilmindən)***
***Musiqisi Tofiq Quliyevindir.***

Dörd dost, dörd ürək, dörd yoldaşıq biz,
Birdir arzumuz istəklərimiz.
Hər gün suları tən yara-yara,
Birgə gedirik biz buruqlara.

*Nəqərat:*

Ayrılmaz dostlarıq biz,
Tükənməzdir qüvvəmiz,
Qarşımızda baş əyir,
Mavi, dalğalı dəniz.

Günəş nur səpir yollarımıza.
Dostluq güc verir qollarımıza.
Dostluq solmayan baharımızdır.
Hər vaxr sədaqət şüarımızdır.

*Nəqərat:*

Ayrılmaz dostlarıq biz,
Tükənməzdir qüvvəmiz,
Qarşımızda baş əyir,
Mavi, dalğalı dəniz.



## BAKI NƏĞMƏSİ

***("Bəxtiyar" kinofilmindən)***
***Musiqisi Tofiq Quliyevindir.***

Bakı, əziz şəhər mehriban diyar,
Sinəndə boy atıb, oldum bəxtiyar,
Səndə öz eşqimin yadigarı var.

*Nəqərat:*
Sən mənim söhbətim,
Şərəfim, şöhrətim,
Tükənməz dövlətim,

Əzizimsən, gözəl Bakı!
Ürəyim səninlə edir iftixar,
Xəzərin qoynunda saldın buruqlar,
Qəlbimdə qəlbinin hərarəti var.
*Nəqərat:*
Sən mənim söhbətim,
Şərəfim, şöhrətim,
Tükənməz dövlətim,
Əzizimsən, gözəl Bakı!

Baxdıqca doymuram gözəlliyindən,
Şirin nəğmə qədər sevimlisən sən,
Hər yerdə, hər zaman deyəcəyəm mən:

*Nəqərat:*
Sən mənim söhbətim,
Şərəfim, şöhrətim,
Tükənməz dövlətim,
Əzizimsən, gözəl Bakı!



## XATİRƏ MAHNISI

***("Bəxtiyar" kinofilmindən)***
***Musiqisi Tofiq Quliyevindir.***

Bir vaxt uşaq idin, dost idin mənə,
Biz birgə gəzirdik yaşıl bağları.
Səni gördüm, dostum, yad etdim yenə,
Şirin yuxu kimi şirin çağları.
*Nəqərat:*
Ah , niyə?
Nə üçün, mən beləyəm, bəs bu gün?
Ah, niyə,
Sənin mən,
Tuta bilmirəm əllərindən?
Nə qəşəngsən, nə gözəlsən,
Bu axşam sən,
Əziz dost!
Ah, bu gözəlliyi niyə o zaman
Hiss edib, duymadım mən bu günkütək.
Bu gün necə olsa, əzizim. inan,
Sənə öz sözünü deyəcək, ürək.
*Nəqərat:*
Ah , niyə?
Nə üçün,
Mən beləyəm, bəs bu gün?
Ah, niyə,
Sənin mən,

Tuta bilmirəm əllərindən?
Nə qəşəngsən, nə gözəlsən,
Bu axşam sən,
Əziz dost!



## MƏHƏBBƏT MAHNISI

***("Bəxtiyar" kinofilmindən)***
***Musiqisi Tofiq Quliyevindir.***

İlk dəfə görmüşəm səni mən,
Sahıldə, sevgilim.
O vaxtdan getməyir gözümdən
Xəyalın, ey gülüm!
*Nəqarət:*
Yadımda qaldı gül camalın,
Canımı aldı şux camalın.
Odlara saldı, yar, xəyalın məni.
Biz gəzən bağçada o səhər,
Əsirdi küləklər.
Olmazdı hüsnünə bərabər,
Ətirli çiçəklər.

## NAR GÜLÜ

*Musiqisi Tofiq Quliyevindir.*

Bağçaya çıxdım bu səhər,
Güllərə baxdım bu səhər.
Al-əlvan güllər çoxudu,
Sən kimi gözəl yoxudu.
Yoxudu hey, yoxudu.

*Nəqərat:*
Nar gülü,
Yar gülü,
Qırmızı
Bahar gülü.
Gözəlsən, yar gülüsən,
Qırmızı nar gülüsən.
Atəşsən, bağlarda yanarsan gülüm,
Yandıqca, sən məni anarsan, gülüm!
Nar gülü,yar gülümsən,
Yar gülü, nar gülümsən

Üzündə şəfəq rəngi var,
Heyranın olur baxanlar.
Qızaran közə bənzərsən,
Bağçanı. Bağı bəzərsən.
Bəzərsən, hey! Bəzərsən.



## HAMIDAN GÖZƏL MƏNƏM

*(«Qızmar günəş altında» kinofilmindən)*
*Musiqisi Tofiq Quliyevindir.*

Çıxdı Gün, gül oyandı,
Hər tərəf al boyandı.
Dərdimdən neçə oğlan,
Yanar oda qalandı.

*Nəqərat:*
Mən güləm, gül üzüm,
Yarım, heç zaman solmaz.
Mənim kimi gözəli,
Yarım, sevməmək olmaz,
Yarım, sevməmək olmaz.
Dağlarda qar sevənlər,
Ağacda bar sevənlər.
Özünə çox güvənmə,
Üstünə yar sevərlər.

*Nəqərat.*
Dağ döşündən aşmışam,
Küsmüşəm, barışmıram.
Hamıdan gözəl mənəm,
Lakin heç danışmıram.
*Nəqərat.*

## BAHAR OLSUN

*Musiqisi Cahangir Cahangirovundur.*

O qara gözünə heyranam mən,
O şirin sözünə qurbanam mən.
Gəl mənə könlünü bir yol aç,
Gün kimi üstümə şəfəq saç.
*Nəqərat:*
Mən gülüm, gülsün çəmənlər,
Ay ceyran sevgilim!
Qoy açsın güllər, gülşənlər,
Mehriban, sevgilim!
Sevinsin qəlbdən sevənlər,
Hər zaman, sevgilim!
Ömrümüz xəzan bilməz bahar olsun,
Ömrümüz xəzan bilməz bahar olsun.
Mən səni hər zaman anaram, yar,
Eşqində od tutub, yanaram, yar,
Dünyada sədaqət var olsun!
Yaşasın, məhəbbət var olsun!
*Nəqərat:*
Mən gülüm, gülsün çəmənlər,
Ay ceyran sevgilim!
Qoy açsın güllər, gülşənlər,
Mehriban, sevgilim!
Sevinsin qəlbdən sevənlər,
Hər zaman, sevgilim!
Ömrümüz xəzan bilməz bahar olsun,
Ömrümüz xəzan bilməz bahar olsun.



## SƏNİN GÖZLƏRİN

*Musiqisi Cahangir Cahangirovundur.*

Aladır gözlərin,
Şirindir sözlərin.
Gülə-gülə hər səhər.
Ay qız qara tellərin,
Məni heyran edibdir,
Sənin qara tellərin.
*Nəqərat:*
Gəl, yar, gəl yar,
Gəl sənə qurban.
Gəl, yar, gəl yar,
Hüsnünə qurban.
Aladır gözlərin,
Şirindir sözlərin.
Nəğmə kimi xoş gəlir,
Mənə hər an sözlərin.

*Nəqərat:*
Gəl, yar, gəl yar,
Gəl sənə qurban.
Gəl, yar, gəl yar,
Hüsnünə qurban.

## NİYƏ SEVDİM MƏN SƏNİ?

*Musiqisi Ramiz Mustafayevindir.*

Niyə sevdim mən səni,
Niyə vuruldum sənə?
Özüm də bilmirəm heç,
Nəyin xoş gəldi mənə.
Deyim qara saçların.
Qara gözlərin oldu.
Qırmızı yanaqların,
Şirin sözlərin oldu.
Düz olmaz. Axı səndən
Qara gözlülər də var.
Qırmızı yanaqlılıq.
Şirin sözlülər də var.

Bəs qəlbini qəlbimə
Bağlayan nə oldu, qız?
Bu suala bir cavab
Verə bilərəm yalnız:
Səni mənə bağlayan
Düz söz düz ilqar oldu,
Təmiz məhəbbətimiz,
Bir də etibar oldu.
Niyə sevdim mən səni,
Niyə vuruldum sənə?
İndi bildinmi, ay qız.
Nəyin xoş gəldi mənə?



## ELƏ XOŞBƏXTƏM Kİ...

*Musiqisi Ramiz Mustafayevindir.*

Bu gün elə xoşbəxtəm ki,
Sanki qanadlı quşam.
Elə bil ki, anadan
İndicə doğulmuşam.

Bu gün mən bilmirəm ki,
Nədir qüssə, nədir qəm,
Axı, əziz dost. Bugün
Səninlə görüşmüşəm.

## MAHNI

***Musiqisi Ramiz Mustafayevindir.***
***(«Polad» radio-operasından)***

Mən səni çox sevirəm. Həm də möhkəm sevirəm,
Amma istəyirəm ki. Səndən mən üz çevirəm.
Gəl qınama məni sən.
Sən mənə tay deyilsən.
Sən ətirli bir çiçək,
Mən xəzan vurmuş güləm,
Sən atəşin bir ürək,
Mən soyumuş bir küləm.
Sən dalğalı bir dəniz...
Necə tay olaq ki, biz?
Mən coşmaq istəsəm də, coşa bilmirəm artıq,
Sən çırpınmaq sevirsən, mənsə dinclik, rahatlıq.
Çox sevirəm mən səni. həm də möhkəm sevirəm.
Amma istəyirəm ki, səndən mən üz çevirəm.
Amma bacarmıram mən.
Gəl qınama məni sən.



## ÜRƏYİMDƏSƏN

***Musiqisi Ramiz Mustafayevindir.***

Əsən küləklərə qoşuldum dünən,
Dərələrdən keçdim, dağlardan aşdım.
Səni tapmaq üçün küləklərlə mən
Yerləri, göyləri gəzdim, dolaşdım.

Axtardım mən səni dağlar döşündə,
Çoban tütəyinin titrək səsində,
Qayalardan sızan, daşlardan sızan
Axar bulaqların zümzüməsində.

Əsən küləklərlə mən çox dolaşdım,
Heç yerdə, heç yanda tapılmadın sən.
Yalnız axşamüstü Günəş batanda,
Gördüm ki, sən mənim ürəyimdəsən.

## NEYLƏRƏM UNUTSAN

*Muşiqisi Ramiz Mustafayevindir.*

Mən səni özümə həmdəm sanıram,
Eşqinin oduyla alovlanıram.
Gücə də gündüz də səni anıram,
Çıxmayır yadımdan qara gözlərin,
Şirin söhbətlərin, şirin sözlərin.

Sən mənim könlümdə xoş bir ümidsən,
Axı, mən neylərəm, məni sən unutsan.
Sinəm bir ataşdir, onu soyutsan,
Od dolu ürəyim sönər, qaralar,
Çiçəkli ömrümü boran, qar alar.

Neyçindir görəsən bu qorxu , təlaş,
Atarmı yoldaşı vəfalı yoldaş?
Ömür yollarında ağartsaq da baş.,
Yenə də birlikdə olacağıq biz,
Qoşa vuracaqdır ürəklərimiz.



## ÇOBAN

*Musiqisi Ramiz Mustafayevindir.*

Günəş al səhərdən verəndə soraq,
Bürüyür dərəni, yenə çən duman.
Çiynində yapıncı əlində çomaq
Bir təpə üstündə dayanır çoban.

*Nəqərat:*
Nə gözəldir, göy dərələr,
Ürək açan mənzərələr.
Bu sürülər çobanındır,
Bizim doğma obanındır.
Rəng verib, rəng alır yamac, çöl, çəmən,
Ürək sərinlədir əsən küləklər.
Çoban yeridikcə öpür əlindən
Elə bil əl-əlvan güllər. Çiçəklər.

*Nəqərat:*
Nə gözəldir, göy dərələr,
Ürək açan mənzərələr.
Bu sürülər çobanındır,
Bizim doğma obanındır.

## GÖZƏLDİR

***Musiqisi Ramiz Mustafayevindir***

Nazlı bahar qucağında səhərlər
Sərin-sətin əsən yellər gözəldir.
Dik dağlardan coşa-coşa tökülən,
Şəlalələr, axan sellər gözəldir.

*Nəqərat:*
Tamaşadır başdan-başa bu vətən,
Atlaz meşə, yaşıl yamac, göy çəmən.
Dağlardakı lalə, nərgiz, yasəmən,
Bağlardakı qızılgüllər gözəldir.

Sevincindən sular kimi çağlayan,
Gülə-gülə dəstəylə gül bağlayan,
Hər birinə min bir könül bağlayan,
Şəvə kimi qara tellər gözəldir.

*Nəqərat:*
Tamaşadır başdan-başa bu vətən,
Atlaz meşə, yaşıl yamac, göy çəmən.
Dağlardakı lalə, nərgiz, yasəmən,
Bağlardakı qızılgüllər gözəldir.



## BAKI AXŞAMLARI

***Musiqisi Ramiz Mustafayevindir.***

Axşamlar Xəzərə ay nur səpələr,
Sinən üstə sənin yanar ulduzlar.
Qızıldan don geyər gümüş ləpələr,
Sənin axşamların olar füsunkar.

*Nəqərat:*
Bakı, Bakı, can Bakı,
Can sənə qurban Bakı.
Axşamlar Xəzərə Ay nur səpələr,
Qızıldan don geyər gümüş ləpələr.

Hesaba gəlməyən işıqların tək,
Dəniz buruqların çoxdur ay, Bakı!
Nə qədər döyünür, deyəcək ürək:
Gözəllikdə sənə yoxdur tay , Bakı!

*Nəqərat:*
Bakı, Bakı, can Bakı,
Can sənə qurban Bakı.
Axşamlar Xəzərə Ay nur səpələr,
Qızıldan don geyər gümüş ləpələr.

## SÖZ OLMASAYDI

***Musiqisi İbrahim Topçubaşovundur.***

Dağlarda duman gözəldir,
Qaşları kaman gözəldir.
Hüsnünə heç bir söz olmaz,
Gözlərin yaman gözəldir.

*Nəqərat:*
Ağlımı alıbdır başdan,
Keçmək olmaz bu göz qaşdan.
Səni mən yaman sevirəm,
Ürəkdən candan sevirəm.
Mənə eylə vəfa yar,
Aşiqə etmə cəfa yar.

Söyüdlər başın əyəndə,
Sənə mən yarım deyəndə.
Sanaram dünya mənimdir,
Gözünə gözüm dəyəndə.

*Nəqərat.*
Bu qara göz olmasaydı,
Əhdimiz düz olmasaydı.
Sənə heç könül verərdim,
Sözümüz söz olmasaydı.
*Nəqərat.*



## NARINC

***Musiqisi İbrahim Topçubaşovundur.***

Sən bulaq başına gələndə səhər,
Saçını darayır sərin küləklər.
Hər çiçəkdən, hər güldən ətir şaçırsan,
Oğlanların qəlbini oda salırsan.

*Nəqərat:*
Özü gözəl ay Narınc,
Sözü gözəl ay Narınc,
Üzü gözəl ay Narınc,
Ay Narınc, Narınc, Narınc.
Sən bizim tarlanın iftixarısan,
Dillərdə əzbərdir sənin hünərin.
Günlərin ağ, ömrün şən, nə bəxtiyarsan,
Bir zəfərlə başlanır hər iş səhərin.

*Nəqərat.*

Yığırsan pambığı uca dağ kimi.
Bol məhsul yetirən əlin var olsun.
Kəndimizdə tanındın bir mayak kimi,
Sən tək qızlar yetirən elin var olsun.
*Nəqərat.*

## HAMIDAN GÖYÇƏK

***Musiqisi İbrahim Topçubaşovundur.***

Dağlar maralı,
Gəzmə aralı,
Sənsiz ürəyim
Olar yaralı.

*Nəqərat:*
Şirinim, şəkərim, nabatımsan,
Qol –qanadımsan.
Ömrümə, günümə sən bəzəksən,
Öz həyatımsan,
Qol –qanadımsan,
Ay saçı burma,
Uzaqda durma.
Gərəyin olam,
Ayağa salma.

*Nəqərat.*
Bağçada gülsən,
Şeyda bülbülsən.
Ömrümüz gülər,
əgər sən gülsən.



*Nəqərat.*
Dağlarda çiçək,
Hamıdan göyçək.
Ürəyim gedər,
Mən səni görcək.
*Nəqərat.*

## GƏL-GƏL

*Musiqisi Zakir Bağırovundur.*

Görəndə səni gözüm gülər,
Sevinər ürəyim, gözüm gülər.

*Nəqərat:*
Ala gözlüm gəl-gəl,
Şirin sözlüm, gəl-gəl,
Günəş üzlüm gəl-gəl,
Gözəlim, gəl-gəl.
Sən mənim eşqimsən, sevincimsən,
Öz yarım, öz gülüm, öz incimsən.

*Nəqərat:*
Ala gözlüm gəl-gəl,
Şirin sözlüm, gəl-gəl,
Günəş üzlüm gəl-gəl,
Gözəlim, gəl-gəl.
Gəlməsən sənsiz darıxaram,
Uzanan yollara hey baxaram.

*Nəqərat:*
Ala gözlüm gəl-gəl,
Şirin sözlüm, gəl-gəl,
Günəş üzlüm gəl-gəl,
Gözəlim, gəl-gəl.



## SEVGİ MAHNISI

*Musiqisi Zakir Bağırovundur.*

Sən mənim eşqimsən, məhəbbətimsən,
Sən şirin arzumsan, səadətimsən,
Sən mən xoş sözüm, xoş söhbətimsən.

Könlüm sənindir,
Gəl onu dindir.
Bizim sevgimiz,
Göydən dərindir.

İlk eşqim, sevgilim, sənsən, əzizim,
Xəyalınla keçir gecəm, gündüzüm.
Bizimdir bahar.
Ey sevgili yar.
Günlər xoş keçir,
Aylar bəxtiyar.

Könlüm sənindir,
Gəl onu dindir.
Bizim sevgimiz,
Göydən dərindir.

## AY GÖZƏL BAHAR

*Musiqisi Zakir Bağırovundur.*

Yenə bağ-bağça tamam açdı çiçək,
Düzlərə lalə özü vurdu bəzək.
Yenə atlaz geyinib, güldü çəmən,
Doymadı göz bu gözəl mənzərədən.
Oxudu quşlar,
Çöllər. Yoxuşlar,
Gəl-gəl ay bahar,
Nə xoş ətrin var.

Yamyaşıl oldu yenə dağ, yamac.
Nəğmələr qoşdu ona xallı turac.
Aşdı çaylar, yenə də coşdu dəniz,
Sanki mavi qanadlı qusdu dəniz.

Oxudu quşlar,
Çöllər. Yoxuşlar,
Gəl-gəl ay bahar,
Nə xoş ətrin var.

Yaşıl atlaz geyinib güldü çəmən,
Doymadı göz bu gözəl mənzərədən.

Oxudu quşlar,
Çöllər. Yoxuşlar,
Gəl-gəl ay bahar,
Nə xoş ətrin var.



## SEVGİLİNİN SƏSİ

*Musiqisi Zakir Bağırovundur.*

Ay gözəl oğlan, düşüb sorağa,
Sevdiyin qız üçün, getmə uzağa.
O gülün sənin,
Sünbülün sənin,
Öz yanındadır,
Yanındadır,yanındadır,
Sevgilin sənin.
Bir-birinə yaraşırıq biz,
Cüt ulduz kimi yansın eşqimiz.
O gülün sənin,
Sünbülün sənin,
Öz yanındadır,
Yanındadır,yanındadır,
Sevgilin sənin.
O gülün mənəm, yaxın gəl, yaxın,
Sevgilin mənəm, yaxın gəl, yaxın.
Gəl duraq qoşa,
Edək tamaşa,
Bağçaya, bağa.
Getmə uzağa.
Ay gözəl oğlan, düşüb sorağa,
Sevdiyin qız üçün, getmə uzağa.
O gülün sənin,
Sünbülün sənin,
Öz yanındadır,
Yanındadır,yanındadır,
Sevgilin sənin.

## ÖZÜNƏ QURBANAM

*Musiqisi A. Babayevindir.*

Demişdin yaz gəlsin, yaz gəldi ay qız,
Söyüdlər sulara kölgələr saldı.
Çiçəklər açıldı. Göyərdi yarpız.
Verdiyin vədlər. Bəs harda qaldı?

*Nəqərat:*
Özünə qurbanam,
Sözünə qurbanam,
Gözünə qurbanam, yar!

Yaz qurtarır artıq, dinmirsən nədən?
Axı, söz vermişdin, ilqarımız var.
Dözə bilməyirəm, tələsirəm mən.
Sevindir qəlbimi sən, ey gözəl yar!

*Nəqərat:*
Özünə qurbanam,
Sözünə qurbanam,
Gözünə qurbanam, yar!



## BULAQ ÜSTƏ GEDƏN GÖZƏL

*Musiqisi A. Babayevindir.*

Bulaq üstə gedən gözəl, gedəngözəl,
Məni heyran edəngözəl, edəngözəl,
Bulaq suyu sərindir, özün sərin olma barı.
Sərin olsan sönüb gedər eşqin alovları.

*Nəqərat:*
Mən necə dözüm,
Sərindir sözün,
İncitmə məni.
Qaradır gözün,
Bilirsən özün,
Sevirəm səni.

Sevgim sənin, qəlbim sənin, can sənindir,
Eşqin ilə yanan könlüm məskənindir.
Bu atəşə su səpmə, gözəl, hər an yansın, yansın.
İki qəlbdə bir sevginin odu alovlansın.

*Nəqərat.*

Qışda çıxan Günəş kimi parlaqsan sən,
Amma əsər yoxdur səndə hərarətdən.
Soyuq olma bu qədər, bulaq üstə gedən gözəl,
Məni heyran edən gözəl.
*Nəqərat.*

## LƏPƏLƏR

***Musiqisi Ş. Kərimovundur.***

Qanadlı qusmuşunuz,
Hayandan uçmuşunuz,
Ləpələr, ay ləpələr,
Ləpələr, ay ləpələr.
Gözləriniz mavidir,
Rənginiz səmavidir.

*Nəqərat:*
Nə qədər gözəlsiniz,
Döyünən ürəksiniz,
Ləpələr, ay ləpələr,
Ləpələr, ay ləpələr.
Nə gözəl nəğməkarsız,
Yoxsa ki, bəstəkarsız,
Ləpələr, ay ləpələr,
Ləpələr, ay ləpələr.

Qaynayırsız, daşırsız,
Siz nə pıçıldaşırsız,
Ləpələr, ay ləpələr,
Ləpələr, ay ləpələr.

Hər dalğanız simmidir,
Nəğməniz eşqimmidir,
Ləpələr, ay ləpələr,
Ləpələr, ay ləpələr.



## BU BAĞŞADAN KEÇMİSƏN

***Musiqisi Vasif Adıgözəlov***

Yəqin bu gün səhər-səhər,
Bu bağçadan keçmisən.
Soruşursan
Nədən bildim bunu mən.

Çiçəklərin nəfəsində
Saçlarının qoxusu,
Nərgizlərin xumarında,
Gözlərinin yuxusu,
Quşların nəğməsində,
Səsinin ahəngi var.

Çinarların cərgəsində
Bədəninin qaməti,
Günəşin zərrəsində,
Qəlbinin hərarəti,
Lalənin ləçəyində
Yanağının rəngi var.
Bu bağçadan keçdiyini,
Onlar mənə verdi xəbər.

## KƏND YOLU

*Musiqisi Əziz Əzizovundur*

Kəndimizin enli yolu,
Göy çinardır sağı, solu, solu.
Qüzeylərə gün düşəndə,
Hər vaxt burda kölgə olur, olur.

Kənd yolunda gəl, qoşa gedək,
Göy çinarlar, açan gül-çiçək
Salamlasın qoy, hər an bizi, bizi.
Gəl, gözləyir kənd çoxdan bizi.

Kəndimizin yolu dümdüz,
Sağı lalə, solu nərgiz, nərgiz.
Keçsə aylar, ötsə illər,
Mən keçmərəm ordan sənsiz, sənsiz.

Kəndimizin yoluhamvar,
Gül səpibdir ona bahar, bahar.
Ürəyimi açdım sənə,
Vaxt çatıbdır, ver bir qərar, qərar.

Kənd yolunda qoşa gedək,
Gəl, sevgilim, biz.



## İLK MƏHƏBBƏT

*Musiqisi Qəmbər Hüseynlinindir.*

Ləkəsizdir, təmizdir,
Dalğalı bir dənizdir.
Canımdan da əzizdir.
Mənim ilk məhəbbətim.

Qanadlıdır ley deyil,
Çox şirindir mey deyil.
Unudulan şey deyil,
Mənim ilk məhəbbətim.

Ömrün ülviyyətidir,
Könül şeriyyətidir.
Ana məhəbbətidir,
Mənim ilk məhəbbətim.

## VƏTƏN NƏĞMƏSİ

*Musiqisi İ. Cabbarovanındır.*

Bərəkətli çölləri
Çoxdur mənim ölkəmin,
Dünyada bərabəri,
Yoxdur mənim ölkəmin.

Nəzər saldıqca barlı
Yaşıl bağlar görürsən.
Baxdıqca başı qarlı,
Uca dağlar görürsən.

Hər tərəfdən yüksəlir,
Göylərə nəğmə səsi.
İnsana çox xoş gəlir,
Yurdumun mənzərəsi.



## DEMƏ

*Musiqisi İ. Cabbarovanındır.*

Demə saçlarıma dən düşüb artıq,
Gənclik gedib əldən qocalmışam mən.
Bu gözəl dövranda qocalmaq olmaz,
Ömrüm uzandıqca ucalmışam mən.

Düzdür, ağ saçlar var, başımda, nə qəm,
Ağ çiçəklər açar, gələndə bahar.
Bir də ki, əzizim, özün bilirsən,
Uca dağ başında daim qar olar.

## ULDUZLAR

*Musiqisi Hökümə Nəcəfovanındır.*

Hüdudsuz göylərin qoynunda çiçəksiz,
Aydınlıq gecəyə, nə gözəl bəzəksiz.
Ulduzlar, ulduzlar, ay parlaq ulduzlar,
Ulduzlar,ulduzlar,ulduzlar.

Mən sizə vurğunam uşaqlıq çağımdan,
Sizinlə olmuşdur xəyalım hər zaman.
Ulduzlar, ulduzlar, ay parlaq ulduzlar,
Ulduzlar,ulduzlar,ulduzlar.

Əlçatmaz göylərə yol açır insanlar,
Çoxdandır qəlbimdə belə bir arzu var.
Gələydim mən sizə bir qonaq, ulduzlar.
Ulduzlar,ulduzlar,ulduzlar.



## ANA

*Musiqisi Ələkbər Tağıyevindir.*

Anacan, mən sənə çox borcluyam, çox,
Borcundan çıxmaqçın canımı verrəm.
Sən hər nə istəsən, yox deməram, yox,
Həyatımı verrəm, canımı verrəm.

*Nəqərat:*
Ağrıyan başımı qoyub dizinə,
Dincimi alıram yorulanda mən.
Körpə bir uşaq tək baxıb gözünə,
Sanki unuduram hər şeyi hərdən.

Gəl mənə çox görmə bu təsəllini,
Verdiyin həyatla borcluyam sənə.
Ana, sən saçında gəzdir əlini,
Dizinin üstünə baş qoyum yenə.

## «BİR MƏHƏLLƏLİ İKİ OĞLAN»

***kinofilmindən mahnı***
***Musiqisi Qara Qarayevindir.***

Varlılara edək hörmət,
Yaxşı yeyir, yaxşı içir.
Aman, aman, aman.
Gəlin yaddan çıxaraq biz,
Həyatımız necə keçir,
Aman, aman, aman.

Ot ye dolan, yazıq kasıb,
Ayrı fikrə düşmə daha.
Sürün, keçin bu gün belə,
Yazıq kasıb, yazıq kasıb.
Pənah elə sən Allaha,
Unutmayın bunu bir an,
Nə tamahım var, nə param,
Yaxşı sözüm çoxdur,
Param isə yoxdur.

Sözlərim xoşdur mənim,
Cibimsə boşdur mənim.
Aman, aman, aman.
Möhkəm bağla kəmərini,
Tərin üzə çıxsın, kasıb.
Aman, aman, aman.



Qoy bu miskin qismətini,
Dövlətlilər tıxsın, kasıb.
Aman, aman, aman.

Çoxdan çıxıb yadımızdan,
Al şərabın xoş ləzzəti.
Ağa görür bu ləzzəti,
Çəkirik biz əziyyəti.
Unutmayın bunu bir an,
Nə tamahım var, nə param,
Yaxşı sözüm çoxdur,
Param isə yoxdur.

Sözlərim xoşdur mənim,
Cibimsə boşdur mənim.
Aman, aman, aman.
“Ağla” – deyir varlı bizə,
İşləriniz olsun taraz.
Aman, aman, aman.
Sən göz yaşı tökmə daha,
Ağlamaqdan heç nə çıxmaz,
Aman, aman, aman.

Qorxaq titrər qorxusundan,
Başqa yolla gedirik biz,
Qoy döyünsün sinəmizdə,
Cəsarətlə ürəyimiz,
Unutmayın bunu bir an,
Nə tamahım var, nə param,

Yaxşı sözüm çoxdur,
Param isə yoxdur.
Sözlərim xoşdur mənim,
Cibimsə boşdur mənim.
Aman, aman, aman.



## MÜNDƏRİCAT

ƏNVƏR ƏLİBƏYLİ – 100 .......... 3
AZƏRBAYCAN .......... 24
SEVGİLİM .......... 25
TƏKCƏ SƏNİ SEVMİŞƏM .......... 26
GƏLMƏDİN .......... 27
GƏLMƏDİN .......... 28
AĞACDA LEYLƏK .......... 29
DOSTLUQ NƏĞMƏSİ .......... 30
BAKI NƏĞMƏSİ .......... 31
XATİRƏ MAHNISI .......... 33
MƏHƏBBƏT MAHNISI .......... 35
NAR GÜLÜ .......... 36
HAMIDAN GÖZƏL MƏNƏM .......... 37
BAHAR OLSUN .......... 38
SƏNİN GÖZLƏRİN .......... 39
NİYƏ SEVDİM MƏN SƏNİ? .......... 40
ELƏ XOŞBƏXTƏM Kİ .......... 41
MAHNI .......... 42
ÜRƏYİMDƏSƏN .......... 43
NEYLƏRƏM UNUTSAN .......... 44
ÇOBAN .......... 45
GÖZƏLDİR .......... 46
BAKI AXŞAMLARI .......... 47
SÖZ OLMASAYDI .......... 48
NARINC .......... 49

HAMIDAN GÖYÇƏK.....50
GƏL-GƏL.....52
SEVGİ MAHNISI.....53
AY GÖZƏL BAHAR.....54
SEVGİLİNİN SƏSİ.....55
ÖZÜNƏ QURBANAM.....56
BULAQ ÜSTƏ GEDƏN GÖZƏL.....57
LƏPƏLƏR.....58
BU BAĞÇADAN KEÇMİSƏN.....59
KƏND YOLU.....60
İLK MƏHƏBBƏT.....61
VƏTƏN NƏĞMƏSİ.....62
DEMƏ.....63
ULDUZLAR.....64
ANA.....65
«BİR MƏHƏLLƏLİ İKİ OĞLAN».....66



Yığılmağa verilmiş: 01.08.2016
Çapa imzalanmışdır: 21.11.2016
Şərti çap vərəqi:9
Format: 60X84 1/8
Tirajı:500

Kitab "ORXAN" Nəşriyyat və Poliqrafiya müəssisəsinin mətbəəsində hazır diopozitivlərdən istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəhəri, Dərnəgül qəsəbəsi,
3105-ci məhəllə
Direktor: Cəfər Bağırov
Tel: 562-83-03